**Arif Vəliyev,**
**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinin sədri**

# Ermənistanın sosial-demoqrafik vəziyyəti rəsmi statistik göstəricilərlə

Ermənistanın rəsmi statistika orqanları, beynəlxalq təşkilatlar və müxtəlif qeyri-hökumət təşkilatları tərəfindən nəşr olunmuş rəsmi statistika məlumatları bu ölkənin sosial-iqtisadi vəziyyətini xarakterizə etməyə, ümumi makro təhlillərin aparılmasına imkan verir.

Müxtəlif rəsmi nəşrlərdə, beynəlxalq təşkilatların məlumat bazalarında və hesabatlarında olan məlumatların, hətta həqiqəti əks etdirməyən, müxtəlif hesablamalar əsasında verilmiş statistika məlumatlarının təhlili belə göstərir ki, ölkənin sosial-iqtisadi vəziyyəti kifayət qədər acınacaqlıdır. İldən-ilə sosial bərabərsizlik dərinləşmiş, müstəqilliyin ilk illərində xaricdən daxil olan maliyyə vəsaiti tükənmişdir. Nəticədə, investisiya qoyuluşu azalmış, işsizliyin səviyyəsi yüksəlmiş və ölkəni tərk edən vətəndaşların sayı artmışdır. Təsadüfi deyil ki, dünyanın 150-dən çox ölkəsində sorğu aparmış nüfuzlu "Gallup" ictimai təşkilatının 2012-ci ildə MDB üzv-iştirakçı dövlətlərində apardığı sosioloji sorğunun nəticələrinə görə erməni əhalisinin 40.0 faizi Ermənistanı daimi olaraq tərk etmək istədiyini bildirmişdir. Təşkilatın yaydığı bu rəqəm MDB üzv-iştirakçı ölkələr arasında ən yüksək göstərici olmaqla həmin ölkələr üzrə orta göstəricidən 2.7 dəfə çoxdur (http://www.gallup.com/tag/armenia.aspx).

Ermənistan əhalisinin sayında və demoqrafik strukturunda ciddi problemlərin olduğunu həm milli statistika xidməti, həm də beynəlxalq təşkilatların məlumatları göstərir. Ermənistan Milli Statistika Xidmətinin məlumatına görə son bir ildə erməni əhalisinin sayı 9.1 faiz azalmış, daimi əhalinin (ölkədən kənara gedən, lakin həmin ölkənin qeydiyyatında olanlar da daxil olmaqla) sayı 3.3 milyon nəfərdən 3.0 milyon nəfərə düşmüşdür (www.armstat.am; Содружество Независимых Государств 2010-2012, краткий статистический сборник, səh 49). Rəsmi statistika orqanlarının və beynəlxalq təşkilatların rəsmi məlumatlarına əsaslanmaqla ABŞ-ın Əhali Araşdırma Bürosunun nəşr etdiyi 2012-ci il üzrə məlumat bülletenində verilmiş məlumatlara görə (http://www.prb.org/pdf12/2012-population-data-sheet_eng.pdf) dünya üzrə əhalinin hər min nəfərinə təbii artım 1.2 olduğu halda, Ermənistanda bu göstərici cəmi 0.5 təşkil etmiş, xalis miqrasiya mənfi olmuşdur. Ermənistan statistika xidmətinin 2013-cü ilin yanvarın 1-i vəziyyətinə olan məlumatındakı son azalma nəzərə alınmadan belə, dünya əhalisinin artımı 2025-ci il üzrə 14.5, 2050-ci il üzrə 40.0 faiz, Ermənistan üzrə 2025-ci il üzrə artımın olmayacağı, 2050-ci ildə isə əhalinin sayının 10.0 faiz azalacağı proqnozlaşdırılmışdır. Qeyd etmək lazımdır ki, bu hesablamalar 2012-ci ilin əvvəlinə olan, əhalinin sayının eyni səviyyədə göstərildiyi illərin məlumatları üzrə hesablanmışdır və son ilin rəsmi statistika məlumatları əsasında proqnozlar yenidən hesablandıqda ölkə əhalisinin sayının 2.0 dəfədən çox azalması müşahidə olunacaqdır.

Ermənistanda əmək qabiliyyətli yaşlı əhalinin ümumi ölkə əhalisinin sayına nisbətinə görə dünya üzrə orta göstəricidən 34.6 faiz aşağı olması ölkəni tərk edənlərin daha çox bu yaşda olduqlarını göstərir. Ölkə əhalisi yaşlaşmış, 65 və daha çox yaşı olanların xüsusi çəkisi dünya üzrə orta göstəricidən 25.0 faiz çox olmuşdur. 15-49 yaşında olan qadınların bütün ömrü boyu dünyaya gətirəcəyi uşaqların sayı göstəricisinə (fertillik əmsalı) görə Ermənistanda vəziyyət daha pis olmaqla, dünya üzrə orta göstəricidən 29.2 faiz aşağı olmuşdur.

**Cədvəl 1**

**Əhalinin sayı və hərəkəti üzrə bir sıra göstəricilər**

| | Əhalinin orta illik sayı (mlyn. nəfər) | Əhalinin hər 1000 nəfərinə | | Fertillik əmsalı | Əhalinin proqnozu (mlyn.nəfər) | |
|---|---|---|---|---|---|---|
| | | təbii artım | xalis miqrasiya əmsalı | | 2025-ci il | 2050-ci il |
| **Dünya ölkələri üzrə - cəmi** | **7058.0** | **12.0** | - | **2.4** | **8082.0** | **9624.0** |
| onlardan: | | | | | | |
| **MDB üzrə - cəmi** | **279.6** | **…** | **…** | **…** | **286.8** | **285.7** |
| o cümlədən: | | | | | | |
| Azərbaycan | 9.3 | 13.0 | 0 | 2.3 | 10.4 | 11.4 |
| Belarus | 9.5 | -3.0 | 1 | 1.5 | 9.0 | 7.9 |
| Qazaxıstan | 16.8 | 14.0 | 0 | 2.6 | 19.5 | 24.9 |
| Qırğızıstan | 5.7 | 20.0 | -6 | 2.7 | 6.6 | 8.1 |
| Moldova | 4.1 | -0.0 | -0 | 1.3 | 3.7 | 2.6 |
| Özbəkistan | 29.8 | 18.0 | -2 | 2.6 | 35.6 | 43.3 |
| Rusiya | 143.2 | -1.0 | 2 | 1.6 | 140.8 | 127.8 |
| Tacikistan | 7.1 | 23.0 | -2 | 3.3 | 9.6 | 13.4 |
| Türkmənistan | 5.2 | 14.0 | -1 | 2.4 | 5.9 | 6.6 |
| Ukrayna | 45.6 | -4.0 | 4 | 1.5 | 42.4 | 36.6 |
| Ermənistan | 3.3 | 5.0 | -1 | 1.7 | 3.3 | 3.1 |

Mənbə: ABŞ-ın Əhali Araşdırma Bürosunun 2012-ci il üzrə məlumat bülleteni (http://www.prb.org/pdf12/2012-population-data-sheet_eng.pdf)

Əmək qabiliyyətli yaşlı əhalinin az olmasına, ölkəni əsasən bu yaşda olanların tərk etməsinə baxmayaraq, bu ölkədə qalan iqtisadi fəal əhalinin 17.6 faizi işsizdir. Son üç ildə ardıcıl olaraq, həm məşğulluq orqanlarında rəsmi işsiz statusu alanların, həm də keçirilmiş rəsmi statistika sorğusu üzrə faktiki işsizliyin səviyyəsinə görə Ermənistan MDB ölkələri arasında birinci olmaqla yanaşı, ən yaxın izləyicisini 2.4 dəfə, MDB üzrə orta göstəricini 2.9 dəfə qabaqlamışdır. İqtisadi fəal əhalinin sayı 2012-ci ildə əvvəlki ilə nisbətən 2.9 faiz azalmışdır.




*Mənbə: Содружество Независимых Государств 2010-2012, краткий стат. сборник, səh 65;67*

Əhalinin əsas gəlir mənbəyi olan əmək haqqının həcminin və onun dinamikasının təhlili təsdiq edir ki, ölkədə son üç ildə demək olar ki, əmək haqqı artmamış, dövlət büdcəsindən bu məqsədlər üçün ayrılmış vəsaitin xüsusi çəkisi azalmışdır (http://www.minfin.am). 2010 və 2011-ci illərdə qiymət artımı əmək haqqı artımını qabaqlamış, real əmək haqqında azalma müşahidə olunmuş, 2012-ci ildə isə cəmi 2.0 faiz artım olmuşdur. Bu göstəriciyə görə də Ermənistan MDB-də sonuncu yeri tutur. Təyin olunmuş pensiyaların məbləği 2012-ci ildə 70.2 ABŞ dolları təşkil etmiş, Tacikistan istisna olmaqla MDB-də axırıncı mövqedə qərarlaşmışdır. Əhalinin əldə etdiyi gəlirlərin yarıdan çoxu ərzaq məhsullarının alınmasına yönəldilmişdir.

Ermənistanın xarici dövlət borcunun artması gələcək nəsil üçün mövcud problemləri daha ciddiləşdirir. MDB Dövlətlərarası Statistika Komitəsinin "2009-2012-ci illər üzrə MDB və digər dünya ölkələrində makroiqtisadiyyat və maliyyə" adlı statistik nəşrində olan məlumata görə 2012-ci ildə ölkənin ümumi xarici borcunun həcmi 7.6 milyard ABŞ dolları təşkil etməklə ÜDM-in 76.7 faizinə bərabər olmuşdur. Xarici borcun həcmi son beş ildə 2.2 dəfə artmışdır. Əgər 2008-ci ildə xarici dövlət borcunun məbləği ümumi milli gəlirdə 29.2 faiz təşkil edirdisə, Dünya Bankının son məlumatlarına görə bu rəqəm 68.0 faizi ötmüşdür. Borcun artım sürətinə görə dünyada 5-ci, göstəricinin xüsusi çəkisinə görə Ermənistan dünyada ilk 20-likdə qərarlaşmışdır. Xarici dövlət borcunun ödənilməsinə görə ümumi milli gəlirdə öhdəliyi olan ölkələr arasında qabaqcıl olmaqla, dövlətin ümumi ehtiyatları xarici dövlət borcunun

dörddə birini təşkil edir. Bununla belə, Beynəlxalq Valyuta Fondundan alınmış kreditlərin həcmi son beş ildə 3.6 dəfə çoxalmış, öhdəlik kəskin şəkildə artmışdır.

**Cədvəl 2**

**MDB üzrə Beynəlxalq Valyuta Fondundan alınmış kreditlərin həcmi, milyon ABŞ dolları**

| | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|
| MDB üzrə- cəmi | 17929 | 27741 | 31790 | 31937 |
| Azərbaycan | 316 | 303 | 282 | 265 |
| Qazaxıstan | 529 | 539 | 529 | 528 |
| Qırğızıstan | 295 | 300 | 307 | 312 |
| Moldova | 347 | 338 | 509 | 655 |
| Rusiya | 8736 | 8892 | 8735 | 8708 |
| Tacikistan | 142 | 170 | 227 | 246 |
| Ukrayna | 6726 | 13027 | 16262 | 16212 |
| Ermənistan | 270 | 725 | 876 | 963 |
| Belarus | 568 | 3449 | 4063 | 4050 |

*Mənbə: http://data.worldbank.org/indicator/DT.DOD.DIMF.CD*

Ermənistan Respublikasında iqtisadi fəal əhalinin bir nəfərinə düşən xarici borcun məbləği 5.4 min, hər doğulan uşağa 165.2 min ABŞ dolları təşkil edir.

Ölkə iqtisadiyyatının sosial təminat üzərində deyil, xarici amillər və onların qısa müddətli kommersiya maraqları üzərində qurulması ölkəyə olan marağı azaltmışdır. MDB Dövlətlərarası Statistika Komitəsinin 2012-ci ilin yekunları üzrə statistika nəşrində olan məlumatlara görə Ermənistanda əsas kapitala qoyulan investisiyaların həcmi MDB-də ən aşağı göstərici olmuş və son beş ildə 44.3 faiz azalmışdır (Содружества Независимых Государств 2000-2012, краткий статистический сборник, səh 114).

Sosial problemlərə görə əhalinin Ermənistanı tərk etməsi, investisiyaların və maliyyə imkanlarının tükənməsi məntiqi olaraq fərdi mənzillərin tikintisinə öz təsirini göstərmişdir. 2012-ci ildə əhalinin hər 10 min nəfərinə düşən istifadəyə verilmiş mənzillərin sayı bu ölkədə cəmi 11 ədəd təşkil etməklə MDB-də sonuncu olmuşdur.